# PANDEMİYA DÖVRÜNDƏ DÖVLƏTİN İQTİSADİ QANUNVERİCİLİK SAHƏSİNDƏKİ İSLAHATLARININ MAHİYYƏTİ

**Ə.Ə.ƏLİYEVA**
*asmer_1985@yahoo.com*

*İqtisadi fəaliyyətin hüquqi tənzimlənməsinin ayrılmaz hissəsi iqtisadiyyatın böhran hallarında dövlət müdaxiləsidir. Pandemiya şəraitində dövlətin iqtisadi fəaliyyəti tənzimləməsi üçün həyata keçirdiyi tədbirlər 3 qrupa bölünür. Birinci qrupa Operativ qərargahın qərarı ilə bağlanan iş yerlərinin işçilərinin əmək haqqlarının bir hissəsinin ödənilməsi, ikinci qrupa mikrosahibkarlıq subyektlərinə maliyyə dəstəyi, üçüncü qrupa isə vergi güzəştləri aiddir. Məqalə yuxarıdakı məsələlərə həsr olunmuşdur.*

**Açar sözlər:** vergi güzəştləri, vergi imtiyazları, vergi tətilləri, pandemiya, mikrosahibkarlığa dəstək, iqtisadi islahatlar.

Koronavirus pandemiyasının dünya iqtisadiyyatına təsirinin nəticələri barədə dəqiq rəqəmlər vermək bu gün olduqca çətindir. Bütün dünyada iqtisadçılar, hüquqşünaslar, siyasətçilər hesablamalar aparır, proqnozlar verməyə çalışırlar. Bir şey dəqiqdir - pandemiya son yüzilliklərdə baş vermiş ən ağır böhranla belə müqayisə edə bilməyəcəyimiz dərəcədə dünya təsərrüfatını zədələdi və bu zərbə qarşıdakı bir neçə illər, bəlkə də onillər hələ hiss olunacaqdır. Dünya iqtisadiyyatının önəmli sahələri olan turizm sıfırlandı, xidmət sahələri sıfırlanacaq dərəcədə zəiflədi, əsas istehsalçı ölkələrdə bir neçə aylıq karantin qaydalarına görə istehsal sahələrinin fəaliyyəti ya dayandı, ya da çox azaldı, idxal-ixrac əməliyyatları azaldı, pul dövriyyəsi zəiflədi və s.

Bütün bunlar xeyli sayda insanın işsiz qalması, sahibkarlıq subyektlərinin müflisləşməsi ilə nəticələdi və indi də bu proses davam edir. Bu proseslər dövlətin öz sahibkarına sahib çıxmasını şərtləndirirdi.

Dövlətin iqtisadiyyata müdaxilə edib-etməməsi barədə iqtisadiyyat və hüquq elmində çoxsaylı nəzəriyyələr mövcuddur. Adam Smit hesab edir ki, dövlət iqtisadiyyatın tənzimlənməsində "gecə gözətçisi" funksiyasını daşıyır (2,74). Keynsçilər iqtisadiyyata dövlət təsirinin daha güclü olmalı olduğu qənaətindədirlər (1,34). Bu müdaxilənin və təsirin hansı formada və dərəcədə olmasından asılı olmayaraq pandemiya dövründə sahibkarına yardım etməsi və ziyanın bir hissəsinin qarşılanması dövlətin əsas vəzifələrindən biridir.

Ölkə prezidentinin 19 mart 2020-ci il tarixli "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı ilə Nazirlər Kabinetinə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi ilə İşçi qrupun yaradılması və 15 gün müddətində hökumətə pandemiyadan zərər çəkməsi ehtimal olunan sahələrin meyarlarının müəyyən olunması tapşırığı verildi.

Adı çəkilən Sərəncamın icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 21 mart 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası İqtisadiyyat nazirinin, Azərbaycan Respublikası Maliyyə nazirinin, Azərbaycan Respublikası Əmək və Əhalinin sosial müdafiəsi nazirinin, Azərbaycan Respublikası Mərkəzi

Bankın rəhbərinin rəhbərliyi ilə 4 işçi qrup yaradıldı və 04 aprel 2020-ci ildə adı çəkilən Prezident Sərəncamının icrasını təmin etmək məqsədilə Tədbirlər Planı təsdiq olundu.

Tədbirlər Planında 3 əsas istiqamət öz əksini tapırdı, bunlar - iqtisadi artıma və sahibkarlığa dəstək, məşğulluq və sosial rifaha dəstək və makroiqtisadi və maliyyə sabitliyi istiqamətləri idi.

Bütün bu dəstək istiqamətləri bütövlükdə dövlət tərəfindən 3 milyard manatlıq bir yardım paketinin ayrılması ilə nəticələndi. Qeyd edək ki, bu, ölkənin ÜDM-nə nisbətdə 3,1 faiz idi ki, dünya ölkələrinin xeyli hissəsinə münasibətdə kifayət qədər böyük göstərici idi.

İqtisadi artıma və sahibkarlığa dəstək paketi özü də dövlət tərəfindən bir neçə istiqamətdə yardımları nəzərdə tuturdu. Bunlar aşağıdakılar idi:

- ✓ Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi (iş yerlərinin azaldılmaması məqsədilə, bu məqsədlə 215 milyon manat ayrıldı);
- ✓ pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi (bu məqsədlə 80 milyon manat ayrıldı);
- ✓ dövlət zəmanəti ilə sahibkarlıq subyektlərinə kreditlərin verilməsi;
- ✓ vergi stimullarının verilməsi.

Pandemiyanın nəticələrinin aradan qaldırılması üçün vergi stimullarının verilməsi məqsədilə Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edildi. Bunun nəticəsində Məcəlləyə yeni - Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi adlanan XIII Fəsil əlavə olundu. Fəsildə pandemiyadan zərər çəkən və vergi güzəştləri, vergi imtiyazları və vergi tətilləri verilən sahələr, edilən güzəştlər və güzəştlərin tətbiq edilə bilməyəcəyi sahələr barədə müddəalar öz əksini tapmışdır.

Məcəllənin 222.5-ci maddəsi pandemiyanın ziyan gördüyü və vergi güzəştlərinin tətbiq edilməli olduğu sahələri aşağıdakı kimi müəyyənləşdirir:

- ✓ *avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili (şəhərlərarası və rayonlararası, şəhərdaxili və rayondaxili) sərnişin daşımaları (o cümlədən taksi ilə) fəaliyyəti;*
- ✓ *yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlərin fəaliyyəti;*
- ✓ *turoperator və turagent fəaliyyəti;*
- ✓ *sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının satıcılardan alıcılara daşınması və (və ya) çatdırılması fəaliyyəti;*
- ✓ *ictimai iaşə fəaliyyəti;*
- ✓ *sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti;*
- ✓ *idman-sağlamlıq obyektlərinin fəaliyyəti;*
- ✓ *hazırlıq (tədris) və ixtisasartırma kurslarının, məktəbdənkənar təhsil müəssisələrinin, psixoloji mərkəzlərinin fəaliyyəti;*
- ✓ *koronavirus pandemiyasının yayılması ilə bağlı əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə tam və ya qismən məhdudlaşdırılan fəaliyyət sahələri (dövlətə məxsus olan hüquqi şəxslər, büdcə təşkilatları, dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından maliyyələşən digər dövlət orqanları (qurumları) istisna olmaqla).*





Edilən dəyişikliklər pandemiya nəticəsində ziyan görmüş sahibkarlıq subyektlərinə 2020-ci il yanvarın birindən bir illik müddətə aşağıdakı vergi güzəştlərini nəzərdə tutur:

- əmlak və torpaq vergisi üzrə 100 faiz azadolma;
- gəlir və mənfəət vergisi üzrə 75 faiz azadolma;
- sadələşmiş vergi ödəyiciləri üçün 50 faiz azadolma.

Başqa bir güzəşt vergi hesabatlarının verilməsi ilə bağlıdır. Məcəllənin 223.2-ci maddəsinə əsasən Müvəqqəti vergi rejiminin tətbiq edildiyi mikro sahibkarlıq subyekti olmayan vergi ödəyiciləri əvvəlki il üzrə mənfəət (gəlir) və əmlak vergisi hesabatlarını təqdim etmə müddəti sentyabrın 1-dək uzadılır. Ötən ilin ödənilməmiş vergi borclarına görə faizlərin işləməsi isə 2020-ci il aprelin 1-dən 2021-ci il yanvar ayının 1-dək dayandırılır.

## Ədəbiyyat


1. Mirzəyeva A. Maliyyə hüququ. Dərslik. Bakı; 2018, 264 s.
2. Смит А. Исследование о природе и причинах богатства народов. М., 2009. 960 c.
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2020.
4. www.president.az. Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı
5. www.cabmin.gov.az Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi saytı


**Алиева А.А.**

## СУТЬ ГОСУДАРСТВЕННЫХ РЕФОРМ В ОБЛАСТИ ЭКОНОМИЧЕСКОГО ЗАКОНОДАТЕЛЬСТВА В ПЕРИОД ПАНДЕМИИ

### Резюме

*Неотъемлемой частью правового регулирования экономической деятельности является вмешательство государства в период экономического кризиса. Меры, принимаемые государством для регулирования экономической деятельности во время пандемии, разделены на 3 группы. В первую группу входят выплаты работникам, рабочие места которых были закрыты решением Оперативного штаба в связи с пандемией, во вторую группу входит финансовая поддержка субъектов микропредпринимательства, в третью группу входят налоговые льготы.*

***Ключевые слова:** налоговые льготы, налоговые каникулы, пандемия, поддержка микро бизнеса, экономические реформы.*

**Aliyeva A.A.**

## THE ESSENCE OF THE STATE'S REFORMS IN THE FIELD OF ECONOMIC LEGISLATION DURING THE PANDEMIC

### Summary

*An integral part of the legal regulation of economic activity is state intervention during economic crisis. Measures taken by the state to regulate economic activity during the pandemic are divided into 3 groups.*

*The first group includes the payments to employees whose workplaces were closed by the decision of the Operational Headquarters due to pandemic, the second group includes financial support for micro-entrepreneurship entities, and the third group includes tax benefits.*

***Keywords:*** *tax concessions, tax credits, tax privileges, pandemic, support of microbusiness, economical reforms.*